*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 sentyabr 2019-cu il № 69 (2386) Qiyməti 30 qəpik


# "TurAz Qartalı-2019" birgə taktiki təlimlərində döyüş uçuşları keçirilir



*Ölkəmizdə keçirilən "TurAz Qartalı-2019" birgə taktiki təlimlərində Azərbaycan və Türkiyənin aviasiya vasitələrinin uçuşları keçirilir. Təlimlərdə iştirak edən hər iki ölkənin hərbi aviasiyası müştərək fəaliyyətlərinin planlaşdırılması, əməliyyatların keçirilməsi üzrə qarşılıqlı fəaliyyət, döyüş uzlaşması imkanlarının öyrənilməsi, axtarış-xilasetmə tədbirlərinin icrası, havadan zərbələr endirməklə yer hədəflərinin məhv edilməsi və digər tapşırıqların yerinə yetirilməsi məqsədilə uçuşlar həyata keçirir. Qeyd edək ki, Pakistan Hərbi Hava Qüvvələrinin nümayəndələri təlimlərdə müşahidəçi qismində iştirak edirlər.*

Regional təhdidlərin artdığı bir dövrdə ölkələrimizin və xalqlarımızın təhlükəsizliyini təmin etməyin yolu güclü və mübariz orduya sahib olmaqdan keçir. Güclü ordu üçün isə müasir silah və texnika, həmçinin peşəkar hərbçilər lazımdır. Peşəkar hərbçilərin yetişdirilməsinin ən optimal yolu təlimlərin keçirilməsidir. Təlimlərdə əsgər və zabitlərin ərazi və hava şərtləri ilə tanış olması döyüşə hazırlıq baxımından çox əhəmiyyətlidir. Çünki şəxsi heyət döyüş həmlələrini təlimlərdə öyrənir. Xüsusilə müştərək və birləşmiş təlimlər bir-birimizi tanımamıza, çiyin-çiyinə mübarizə aparmağımıza böyük dəstək verir. Dostluq və birgə əməkdaşlıq çərçivəsində icra edilən "TurAz Qartalı-2019" birgə taktiki təlimlərinin layiqli şəkildə davam etdiyinin və böyük müvəffəqiyyətlə yerinə yetirildiyinin şahidi oluruq. İki dövlətin bir millət, bir ordu olduğunda nələr edə biləcəyinə bu təlimlər bir nümunədir. Azərbaycan-Türkiyə birgə hərbi təlimində qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi bir daha əminlik yaradır ki, təlimə cəlb olunmuş şəxsi heyətlərdə yüksək döyüş hazırlığı vardır.

Ordunun gücünü və döyüş qabiliyyətini yalnız maddi-texniki baza və silah təminatı deyil, həm də şəxsi heyətin vətənpərvərliyi və birliyi artırır. O ordu güclüdür ki, onun əsgər və zabitlərində vətənpərvərlik və birlik olsun. Keçirilən təlimdən çıxan nəticə də ondan ibarətdir ki, bir millətin, iki dövlətin silahlı qüvvələrində yüksək vətənpərvərlik və birlik vardır.

Bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində güclü maddi-texniki təminata, müasir silahlara və peşəkar şəxsi heyətə malik olan Azərbaycan Ordusu ilə Türkiyə Silahlı Qüvvələri arasında hərbi sahədəki əməkdaşlığın səviyyəsi məmnunluq doğurur. Azərbaycan-Türkiyə birgə hərbi təlimlərinin keçirilməsi də bu əməkdaşlığın davamı, ordularımız arasındakı birliyin göstəricisidir.

Bu təlimlər Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, əməliyyat uzlaşmasının əldə edilməsi, o cümlədən regionda təhlükəsizlik və stabilliyin təmin edilməsi baxımından çox vacibdir.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Müdafiə nazirinin müavini Cənubi Koreyalı həmkarı ilə görüşüb

*Seul şəhərində keçirilən "Seul Müdafiə Dialoqu-2019" beynəlxalq müdafiə və təhlükəsizlik konfransında iştirak edən Azərbaycan Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev Koreya Respublikasının Milli Müdafiə nazirinin Müdafiə Siyasəti üzrə müavini Çunq Sukvan ilə görüşüb.*




Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tərəflər iki ölkə arasında mövcud hərbi əməkdaşlığın cari vəziyyətini və inkişaf perspektivlərini müzakirə edərək hərbi təhsil sahəsində əldə olunan nailiyyətləri yüksək qiymətləndiriblər.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyəti, Cənubi Qafqaz və Koreya yarımadasında mövcud hərbi-siyasi durum barədə ətraflı fikir mübadiləsi aparılıb.

## Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi Strasburqdakı türk təşkilatı ilə əməkdaşlığa başlayır

Sentyabrın 5-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) sədri Fərid Şəfiyev COJEP beynəlxalq təşkilatının rəhbəri Əli Gedikoğlunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Bu barədə AZƏRTAC-a Mərkəzin mətbuat xidmətindən məlumat verilib.

Görüşdə Fərid Şəfiyev Mərkəzin fəaliyyət istiqamətlərindən danışıb. Bildirib ki, yeni yaranmış Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin əsas fəaliyyət istiqaməti Azərbaycanda, habelə regionda və dünyada baş verən proseslərlə bağlı arayışlar hazırlamaq, təşkilat və digər qurumlara təqdim etməkdir.

Görüşdə, həmçinin əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb, konkret layihələrlə bağlı təmasların davam etdirilməsinə dair razılıq əldə olunub.

# "Eternity-2019" komanda-qərargah təlimləri başa çatıb

*Ötən gün ərzində Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə keçirilən "Eternity-2019" kompüter dəstəkli komanda-qərargah təlimləri davam edib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimin ssenarisinə uyğun olaraq Bakı-Tbilisi-Ceyhan neft ixrac və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri, o cümlədən Bakı-Tbilisi-Qars dəmiryol xəttinin təhlükəsizliyinin təmin edilməsi, mövcud şəraitin qiymətləndirilməsi, terror qruplarının ehtimal edilən təxribatlarının qarşısının alınması üzrə tədbirlərin görülməsi, həmçinin qərargahlarda müvafiq qərarların qəbul edilməsi üzrə fəaliyyətlər kompüterlərdə icra olunub.

Hər bir müdaxiləyə görə müttəfiq ölkələrin taborlarının qərargahlarının fəaliyyəti qiymətləndirilib.

* * *

"Eternity - 2019" komanda-qərargah təliminin iştirakçıları tapşırıqları səhra şəraitində icra ediblər.

Azərbaycan, Türkiyə və Gürcüstan hərbçilərinin iştirak etdiyi təlimdə ssenariyə uyğun olaraq Bakı-Tbilisi-Ceyhan neft ixrac və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri, o cümlədən Bakı-Tbilisi-Qars dəmiryol xəttinin təhlükəsizliyinin birgə təmin edilməsi, ehtimal olunan terror qruplarının təxribatlarına qarşı mübarizə və onun fəsadlarının aradan qaldırılması istiqamətində qarşılıqlı fəaliyyətlər praktiki olaraq yerinə yetirilib.

* * *

Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə keçirilən "Eternity-2019" kompüter dəstəkli komanda-qərargah təlimlərinin bağlanış mərasimi keçirilib.



Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan, Türkiyə və Gürcüstanın dövlət himnləri səsləndirilib.

Tədbirdə "Eternity-2019" kompüter dəstəkli komanda-qərargah təlimində qarşıya qoyulmuş məqsədlərə nail olunduğu bildirilib.

Qonaqlar təlimin yüksək səviyyədə təşkilinə görə Azərbaycan Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda hər üç ölkə nümayəndələri bir-birilərinə hədiyyələr təqdim ediblər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***6 sentyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskepar kəndində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Dağlıq Qarabağ münaqişəsinə dair bəyanatlar bu münaqişənin nizamlanmasında irəliləyişə nail olmağa şərait yaratmalıdır"

Dağlıq Qarabağ münaqişəsinə dair bəyanatlar bu münaqişənin nizamlanması yolunda sürətli irəliləyişə şərait yaratmalıdır.

AZƏRTAC xəbər verir ki, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu fikri Moskvada keçirdiyi brifinqdə Ermənistanın baş naziri Nikol Paşinyanın son bəyanatları barədə sualın cavabında səsləndirib.

O bildirib ki, münaqişə tərəflərinin bəyanatları münaqişənin dinc yolla nizamlanmasına yönəlmiş ümumi səylərə uyğun olmalıdır.

Rusiya XİN nümayəndəsi deyib: "Danışıqlar prosesində "nifaq alması"na çevrilən və əlavə suallar doğuran bəyanatlardan sonra əvvəlki mövqeyə qayıtmaq həmişə çox mürəkkəb məsələdir və bu, amanabənd danışıqlar prosesinin tarazlığını poza bilər. Təəssüf ki, biz müxtəlif səviyyələrdə müxtəlif tərəflərin bu cür bəyanatlarını çox eşitmişik və bu cür bəyanatlarla yenə üzləşirik".

M.Zaxarova deyib: "Biz daxili siyasi prosesə hörmət bəsləyirik və başa düşürük ki, siyasi quruluşun demokratik modelində insanlar istənilən mövzuda fikir söyləmək, lakin eyni zamanda, müvafiq siyasi ilkin şərait formalaşdırmaq hüququna malikdirlər. Çox istərdik ki, bütün tərəflər bir başlıca şərtə əməl etsinlər - bütün resurslar münaqişənin tezliklə və dinc yolla tənzimlənməsinə yönəldilməlidir. Bu, mürəkkəb və uzun prosesdir. Düşünürəm ki, sürətlə irəliləməyin zəruri olmasını hamı başa düşür və bunun üçün bəyanatlar həmin əsas hədəfə müvafiq olmalı və ona şərait yaratmalıdır".

# “TurAz Qartalı-2019” təlimlərinin açılış mərasimi olub



*Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov və Türkiyə Respublikasının Azərbaycandakı hərbi attaşesi, briqada generalı İsmail Hakkı Köseali "TurAz Qartalı-2019" birgə taktiki-uçuş təlimlərinin açılış mərasimində iştirak ediblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, general-leytenant R.Tahirov təlimlərdə iştirak edən şəxsi heyəti salamlayaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğını xüsusi qeyd edib, keçirilən təlimlərin əhəmiyyətini vurğulayıb. Komandan bunun hərbi gücümüzün daha bir nümunəsi olduğunu diqqətə çatdıraraq bu təlimlərin hər iki ölkənin ordularının təcrübə mübadiləsində mühüm rol oynadığını bildirib.

Təlimlərin Azərbaycanda keçirilməsinin vacibliyini vurğulayan briqada generalı İ.Köseali qürur hissi keçirdiyini bildirərək son illərdə bunun artıq ənənə halını almasını xüsusi qeyd edib. Hərbi attaşe təlimlərin başlanması ilə əlaqədar iştirakçıları təbrik edib və döyüş aviasiyasının uçuşlarının yüksək səviyyədə keçirilməsində onlara uğurlar arzulayıb.



Sonra təlimlərin məqsədi, şəxsi heyətin hazırlığı, yerləşməsi, cəlb edilən qüvvələr, icra edilən tapşırıqlar, aviasiya vasitələrinin uçuşu və istifadəsi barədə məlumat verilib.

## “Tələt Paşanın qatili olan erməni terrorçusuna abidənin ucaldılması insanlığa qarşı hörmətsizlikdir”

Erməni soyqırımı yalanlarını ifşa edən Tələt Paşanı xaincəsinə qətlə yetirən terrorçu Soğoman Tehliryanın heykəlinin ayağı altında bir dövlət adamının kəsik başının əks etdirilməsi türk millətinə qarşı təhqirdir. Bu, bizə qarşı olan nifrətin daşlaşmış nümunəsi olmaqla yanaşı, eyni zamanda, açıq-aşkar təxribatdır.

Bu sözləri Osmanlı dövlətinin Baş naziri olmuş Tələt Paşanın qatili - erməni terrorçu Soğoman Tehliryana Yerevanda ucaldılan abidə ilə bağlı AZƏRTAC-a müsahibəsində Türkiyənin Vətən Partiyasının sədri Doğu Perinçek bildirib.

Doğu Perinçek Tələt Paşanın türk millətinin yetişdirdiyi ən böyük fədailərdən biri olduğunu xatırladaraq, sözügedən heykəl əsasında Tələt Paşanın təhqir olunmasını insanlığa qarşı hörmətsizlik adlandırıb. O, bu təhqirə qarşı dünya ictimaiyyəti qarşısında, o cümlədən Avropa İnsan Haqları Məhkəməsində səssiz qalmayacaqlarını qeyd edib.

## Daha 104 şəhidin 162 vərəsəsinə birdəfəlik ödəmə verilməsi barədə qərar qəbul edilib

Prezident İlham Əliyevin müvafiq Fərmanının icrası olaraq, şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə (11 min manat) ilə təminatı işləri davam edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində fəaliyyət göstərən komissiyanın növbəti iclasında daha 104 şəhidin 162 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub. Birdəfəlik ödəmələrin yaxın günlərdə həmin vərəsələrin bank hesablarına köçürülməsi üçün müvafiq işlər aparılır.

Nazirliyin İnformasiya təminatı və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ümumilikdə 12 min 268 şəhidin vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən edilib. İndiyədək 11 min 507 şəhidin 17 min 111 vərəsəsinin birdəfəlik ödəmə ilə təminatına dair qərar qəbul edilib.

Qeyd edək ki, şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramı artıq 94 faiz icra olunub.

*Gənc zabitlərimiz*

## Azərbaycan Ordusu xalqını yeni qələbələrlə sevindirəcək

Azərbaycanın qarşısında dayanan torpaqlarımızın azadlığı problemi gənc nəsildən, xüsusən hərbçilərimizdən əcdadlarımızın qəhrəmanlıq ənənələrini bu gün də, gələcəkdə də qorumağı və onun müstəqilliyini əbədi etməyi tələb edir. Qədirbilən xalqımız qəhrəmanlıq ənənələrini qoruyur, inkişaf etdirir və bu estafet uğurla nəsildən-nəslə ötürülür.

Ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Hazırda qarşımızda duran vacib və taleyüklü Qarabağ probleminin həllində yaxından iştirak edə biləcək milli-mənəvi dəyərlərimizə bağlı olan intellektual səviyyəli kadrlarımız çoxdur. Kapitan Elmin Məhərrəm oğlu Aslanov belələrindəndir. Naxçıvan MR Culfa rayonunun Teyvaz kəndində anadan olan zabit Heydər Əliyev adına Hərbi Liseyi, sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib və "N" hərbi hissəsində xidmət edir.

Həmsöhbətim hesab edir ki, hər bir insanın qəlbində ana kimi müqəddəs, ülvi və şirin bir hiss var: "Bu, Vətənə olan sevgi hissi, doğma torpağa olan məhəbbət duyğusudur. Vətən eşqi, torpaq sevgisi insanın qəlbinə hakim kəsilən, özündən asılı olmadan yaranan ümmandır. Vətəni sevmək və bu sevgi uğrunda canından belə keçməyə hazır olmaq isə hər bir əsgərin, hərbi qulluqçunun borcudur. Hərbi qulluqçularımız borclarını layiqincə yerinə yetirdilər və Aprel döyüşləri zamanı ilahi tərəfindən millətimizə bəxş olunan torpağımızı öz qanları ilə yoğurmağa hazır olduqlarını sübut etdilər".

Aprel döyüşlərini xatırlayan kapitan Elmin Aslanov bildirdi ki, həmin döyüşlərdən bir çox acı və şirin xatirələr yaddaşıma həkk olunub: "Acı xatirələr odur ki, çiyin-çiyinə xidmət etdiyimiz dostlarımızı, silahdaşlarımızı itirdik. Şərəfli olanı isə odur ki, o torpaqlarda Azərbaycan bayrağı dalğalanır. 25 illik həsrətlə gözlədiyimiz torpaqlarımıza qovuşduq."

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirdiyinə, Azərbaycan Ordusunun zabiti olduğuna, torpaqlarımızın bütövlüyü uğrunda gedən mübarizədə iştirak etdiyinə görə şərəf duyan və məsuliyyət hiss edən kapitan Elmin Aslanov hesab edir ki, hər bir zabit mənəvi keyfiyyətləri ilə seçilməyi, şəxsi heyətə nümunə olmağı, müstəqilliyin keşiyində dayanmağı bacarmalıdır. “Əgər bu gün komandiriksə, milli dəyərlərimizi, tariximizi, mədəniyyətimizi, qəhrəmanlıq ənənələrimizi yaxşı



bilməliyik ki, əsgərlərimizə də onu aşılaya bilək. Sevinirəm ki, hazırlıqlı, günün tələbinə uyğun Azərbaycan əsgərini formalaşdıra bilirik. Bugünkü Azərbaycan əsgəri, hərbi qulluqçusu Azərbaycanın hərb tarixinə parlaq səhifələr açmaq iqtidarındadır. İnanırıq ki, Aprel və Günnüt zəfərləri sonuncu deyil. Azərbaycan Ordusu xalqını yeni qələbələrlə sevindirəcək. Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuzun ona gücü də çatır, potensialı da”.

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## Şəhidlər ölməzdi...

Müharibə tariximizin Aprel döyüşləri ordumuzun qüdrətini, gücünü, döyüş əzmini, qələbə ruhunu göstərdi. Əsgərlərimiz Vətən üçün, torpaq üçün döyüşdülər, əks-həmlə əməliyyatını qələbə ilə tamamladılar. Döyüşlərdə iştirak edənləri, qəhrəmanları unutmuruq. Şəhidlər bizim üçün, Vətənimiz üçün əbədiyyətə qovuşublar. Pilotlarımız -Təbriz Musazadə, Urfan Vəlizadə, Əbu Bəkir İsmayılov belə qəhrəmanlardandır. Onlar Mİ-24 helikopteri ilə döyüşlərdə iştirak etdilər, döyüşdülər, Füzuli istiqamətində şəhid oldular. Şəhidlərimiz izdihamla son mənzilə yola salındı. Pilot Təbriz Musazadənin oğlu Tayfun deyir ki, anam, bizi atam olmadan heç bir nemətə əl uzatmağa qoymurdu. “Deyirdi ki, böyüksüz olmaz. İndi də deyir ki, Tayfun, sən olmadan süfrəyə heç kim əl uzatmayacaq”.

Azərbaycan xalqına xas olan ən gözəl dəyərlərdən biri də ailədə böyüklərə hörmətdir. Pərişan xanımın həyat yoldaşına göstərdiyi hörmət, qəhrəmanımızın övladlarının ataya olan sevgisi bu ailənin əsl Azərbaycan ailəsinə xas olan müsbət keyfiyyətlərinin göstəricisidir. Pərişan xanım Təbrizlə bağlı xatirələrini belə xatırlayır: “Bir gün ondan soruşdum ki, necə ölüm daha yaxşıdır? Cavab verdi ki, şəhid olmaq.”

Urfan Vəlizadə hərbi vətənpərvərlik ruhunda tərbiyə almış, hərbiyə olan sevgisi ilə uşaq yaşlarından fərqlənirmiş. Məhz buna görə də o, orta məktəbi bitirdikdən sonra öz arzusunun arxasıyca gedir. Hərbçi olmaq üçün Türkiyədə təhsil alır, Azərbaycanda xidmətə başlayır. İki qız atası olan Urfan övladlarını vətənpərvər böyüdürdü. Onlara daim "Qarabağ şikəstəsi"ni dinlədirmiş. Şəhidin həyat yoldaşı Könül xanım deyir: "Urfan həmişə deyirdi ki, biz bu problemi gələcək nəsillərə saxlamayacağıq".

Əbu Bəkir İsmayılov Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, sonra Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbini bitirib. Həyat yoldaşı Şəbnəm xanım onun son kəlmələrini belə xatırlayır: "Mən ondan nə vaxt gələcəyini soruşdum. O isə bilmirəm nə vaxt gələcəm, qələbə üçün gedirik" dedi.

Belə qəhrəmanların ömür yolundan öyrənə-öyrənə formalaşan gənc nəslimiz Vətən sevgisiylə yaşayır, işləyir, xidmət edir.

**Elnarə BAYRAMOVA**

# Şəhidlərin xatirə abidəsinin açılışı olub





Beyləqan rayonunun Qəhrəmanlı kəndində bölgənin müdafiəsində dayanan Azərbaycan Ordusunun hərbçilərinin təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsinə abidə ucaldılıb.

Abidənin açılış mərasimində Müdafiə Nazirliyinin rəsmiləri, Beyləqan və Xocavənd rayon İcra hakimiyyətinin rəhbərliyi, hərbi qulluqçular, müharibə veteranları, ictimaiyyət və şəhid ailələrinin nümayəndələri iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təntənəli mərasimi Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin əməkdaşı polkovnik Abdulla Qurbani açaraq bildirib ki, Vətən uğrunda canından keçən oğulların xatirəsi həmişə əziz tutulur. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycan gənclərinin respublika toplantısında demişdi: "Azərbaycan əsgəri, Azərbaycan zabiti Vətən uğrunda, torpaq uğrunda canından keçməyə hazırdır".

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub.

General-mayor Mayis Bərxudarov, Beyləqan rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev, Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, Böyük Vətən müharibəsi veteranı Yusif Mərdanov, şəhid Orxan Quliyevin anası Minayə Quliyeva və başqaları çıxış edərək dövlətimizin başçısına, Birinci vitse-prezident xanım Mehriban Əliyevaya, eləcə də Müdafiə Nazirliyinin rəhbərliyinə şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Hərbçilərin bu vətənpərvər və xeyirxah təşəbbüsü yüksək qiymətləndirilib.

Abidənin qarşısına əklillər və gül dəstələri düzülüb, şəhidlər ehtiramla yad edilib.

# “Hərbiyyə-2019” hərbi vətənpərvərlik düşərgəsinin ilk günü uğurla başa çatıb

Bu günlərdə “N” hərbi hissədə 2019-cu ilin ikinci "Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsinə start verilib. Gənc vətənpərvərlər, Beyləqan rayon İcra Hakimiyyətinin və hərbi hissənin rəhbərliyi tərəfindən səmimiyyətlə qarşılanıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi ziyarət olunub, qarşısına qızılgül çələngi qoyulub.

Abidə qarşısında Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani çıxış edərək, Beyləqan rayonunun tarixi, ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısı cənab İlham Əliyevin bu bölgəyə səfərləri, beyləqanlıların həm əmək, həm də döyüş cəbhəsində göstərdiyi qəhrəmanlıqlar barədə ətraflı məlumat verib.





Beyləqan rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev qonaqları salamlayaraq belə bir möhtəşəm vətənpərvərlik tədbirinin məhz Beyləqan rayon ərazisində təşkil edilməsindən qürur duyduqlarını və düşərgənin yüksək səviyyədə təşkili üçün əllərindən gələn köməyi əsirgəməyəcəklərini bildirib.

General-mayor Mayis Bərxudarov bu kimi tədbirlərin gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində xüsusi əhəmiyyətini qeyd edib. Əbədiyaşar Ali Baş komandan Heydər Əliyevin müdrik kəlamını xatırlayan general-mayor Mayis Bərxudarov nəzərə çatdırıb ki, ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə birləşdirən, əks etdirən Azərbaycan Ordusunun döyüşçüsü Ordumuzu möhkəmləndirə və hər an qələbəyə hazır ola bilər. Bu mənada "Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsi gənc nəslin vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlərə sədaqət ruhunda tərbiyə edilməsini, Azərbaycan Ordusuna böyük sevgi aşılanmasını, orduya fiziki və mənəvi cəhətdən ləyaqətli oğulların hazırlanmasını, onlarda hərbi peşələrə maraq oyadılmasını, silah-sursat və texnikanın dərindən öyrənilməsini, şanlı döyüş tariximizin təbliğini qarşısına məqsəd qoyub.

General əlavə edib ki, hərbi hissənin ən təcrübəli, peşəkar, döyüşlərdən çıxmış hərbi qulluqçuları bir həftə ərzində müxtəlif mövzularda məşğələlər, təlimlər keçəcək və öyrəndikləri nəzəri bilikləri təcrübədə tətbiq edəcəklər. Ümumiyyətlə, gənclər əsl əsgər həyatı yaşayaraq, fəxri döyüş növbəsində dayanacaqlar.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev düşərgənin qarşısına qoyduğu vətənpərvərlik missiyasının yerinə yetirilməsində göstərilən köməyə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq edib və bütün bu layihələrin reallaşmasında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş komandanı cənab İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın daimi dəstəyini yüksək dəyərləndirib.

Gənc vətənpərvərlər cəbhəyanı bölgədəki hərbi hissələrdən birində yaradılan və hər cür şəraiti olan düşərgəyə gedərək orada əsgərlərlə birlikdə nahar edib və düşərgənin açılışına həsr olunmuş təntənəli mərasimdə iştirak ediblər.

Xüsusi zövqlə tərtib olunmuş və döyüş texnikaları yerləşdirilmiş sıra meydanında düşərgənin açılışına həsr olunmuş təntənəli mərasim başlanıb.

Əvvəlcə respublikanın 10-dan çox bölgəsini təmsil edən gənc vətənpərvərlər "Cəbrayıl", "Qubadlı", "Xocavənd", "Xocalı", "Ağdərə" adlarını daşıyan komandaların bayraqları altında təntənəli mərasimə dəvət ediliblər.

Qarabağ müharibəsinin qaziləri Elvin Hüseynov, Rəşad Həşimov, Əliağa Zeynalov, Elşad Haşımov, Nəbi Şükürov, İlqar Babayev, Natiq Mehdiyev və Aqil Əhmədov "Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsinin bayrağını qaldırıblar.



Təntənəli mərasimdə çıxış edən polkovnik Abdulla Qurbani nəzərə çatdırıb ki, bu sayca dördüncü düşərgədir. Növbəti düşərgə Bakının işğaldan azad edilməsinin 101-ci il dönümünə həsr olunub. İki gün öncə "ASAN Könüllüləri" təşkilatı şərti olaraq gənc vətənpərvərlərə hərbi düşərgə üçün səfərbərlik elan etmiş və bir neçə saat ərzində iki minə yaxın gənc vətənpərvər cəbhə bölgəsində hərbi düşərgəyə getməyə hazır olduqlarını bildirmişlər. Onlardan yalnız 101 nəfəri düşərgəyə cəlb edilmişdi.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, general-mayor Mayis Bərxudarov, Beyləqan rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev, Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, "ASAN Könüllüləri" təşkilatının sədri Səbinə Cabarova, Qarabağ müharibəsinin qaziləri və digər qonaqlar çıxış edərək gənc vətənpərvərlərə düşərgənin fəaliyyətində uğurlar arzulayıblar.

Sonra Azərbaycanın əməkdar artisti Nizami Abdullayev, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti, eləcə də Elşən və Səma Sadıqovların rəhbərlik etdikləri "Səma" rəqs qrupu maraqlı konsert proqramı ilə çıxış ediblər.

Xüsusi təyinatlılar və kəşfiyyatçılar nümunəvi çıxışları ilə tədbir iştirakçılarını heyrətləndiriblər.

Şam yeməyindən sonra düşərgə iştirakçıları polkovnik Elşad Əbilovun apardığı "Heydər Əliyev Azərbaycan Ordusunun memarıdır" mövzusunda ictimai-siyasi hazırlıq dərsində iştirak ediblər.

Düşərgənin ilk günü uğurla başa çatıb.

# "Spasskaya Başnya" XII Beynəlxalq hərbi-musiqi festivalı başa çatıb

*Sentyabrın 1-də Moskva şəhərinin Qızıl Meydanında keçirilən "Spasskaya Başnya" XII Beynəlxalq hərbi-musiqi festivalı başa çatıb. Festivalda 12 dövlətdən 20-dən artıq kollektivin 1500-dən artıq musiqiçisi, vokalisti və rəqqası iştirak edib.*



Dünyanın ən böyük hərbi musiqi festivallarından sayılan "Spasskaya Başnya"da I yerə Çin Xalq Respublikası, II yerə Misir Ərəb Respublikası, III yerə isə Qazaxıstan Respublikası layiq görülüb.

Azərbaycanı Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin hərbi orkestrinin və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblının təmsil etdiyi bu festivalda ölkəmiz IV yerə layiq görülüb. Musiqi festivalında yüksək səviyyədə iştirakına görə kollektivimiz diplomla mükafatlandırılıb.

Avqustun 23-dən başlayan "Spasskaya Başnya" XII Beynəlxalq hərbi-musiqi festivalında iştirak edən kollektivimizə rəhbərlik edən polkovnik Etibar Əliyevlə görüşüb qazanılan uğurla bağlı söhbətləşdik.

Polkovnik Etibar Əliyev bildirdi ki, dünyanın ən böyük musiqi festivalları ilə eyni səviyyədə dayanan "Spasskaya Başnya" XII Beynəlxalq hərbi-musiqi festivalında kollektivimizin qazandığı qələbə gərgin hazırlıq məşqlərimizin nəticəsidi. Rusiya, Çin, Yaponiya, İtaliya, Norveç, Qazaxıstan və başqa dövlətlərin iştirak etdiyi festivalda ilk dəfə iştirak etməyimizə baxmayaraq dördüncü yerə çıxmaq böyük uğurdur.

Zabit xüsusilə qeyd etdi ki, hazırlıq prosesində kollektivimiz Müdafiə Nazirliyi rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunmuşdu. "Belə ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun xüsusi tapşırığı ilə kollektivimiz üçün (orkestr və rəqs) müvafiq olaraq yeni geyim formaları tikildi, ən müasir musiqi alətləri alındı".

Festivalda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin hərbi orkestri 51, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblı isə 24 nəfər ilə təmsil olunmuşdu.

Festivalın şərtlərinə uyğun olaraq komandalara çıxış üçün verilən yeddi dəqiqə ərzində yaradıcı heyət repertuarına RV-8 marşı, Əlimərdan Əliyevin "Bayramlı Azərbaycan" marşı ilə başlayıb. Üzeyir Hacıbəylinin "Cəngi"si və "Bayatı Şiraz" muğamının kiçik bir hissəsini qədim musiqi alətimiz olan balabanla keçid edərək Müslüm Maqomayevin "Azərbaycan" mahnısı ifa olunub, sonra isə kollektivimiz "Sıravi Əhməd" marşı ilə Qızıl meydanı tərk ediblər. Xalq çalğı alətlərimiz - zurna və balabanın sədaları altında, milli geyimlərdə rəqsləri ifa edən kollektivimizin üzvləri yerli və xarici tamaşaçıların rəğbətini qazanıblar.

Zabit Etibar Əliyev dedi ki, avqustun 30-da rəhbər heyət üçün təşkil olunmuş görüş zamanı bir çox ölkələrin nümayəndələri - Türkiyənin, Yaponiyanın, Şotlandiyanın rəhbər heyəti bizi öz ölkələrinə dəvət etdi, öz səhnələrində görmək arzusunda olduqlarını bildirdilər. Moskva şəhər Kuzminki istirahət və mədəniyyət mərkəzində etdiyimiz çıxış da tamaşaçılar tərəfindən yüksək qiymətləndirildi, sürəkli alqışlarla qarşılandı. Rusiyanın və dünyanın bir çox ölkələrindən olan tanınmış musiqiçilər kollektivimizin çıxışlarını yüksək qiymətləndirdilər. Hər gün yeddi min tamaşaçının qarşısında çıxış edib xoş sözlər eşitmək, sözsüz ki, bizə könül xoşluğu verirdi.

Polkovnik Etibar Əliyev onu da qeyd etdi ki, festivalda bir dinləyici kimi çox ölkələrin komandalarının çıxışları onun da diqqətini cəlb edib.

- Misir Ərəb Respublikasının çox maraqlı çıxışı oldu. Yaponiya komandasının çıxışlarında isə bir özünəməxsusluq var idi. Rusiyanın general-leytenant V.M.Xəlilov adına hərbi-musiqi liseyinin nümayəndələri də, qardaş Türkiyənin hərbi orkestri də gözəl çıxış etdilər.

Sonda polkovnik Etibar Əliyev Müdafiə Nazirliyinin tərkibində olan musiqi kollektivlərinin və orkestrlərinin gələcəkdə böyük uğurlar qazanaraq ordumuzu, dövlətimizi daha yüksək səviyyədə təmsil edəcəklərini vurğuladı.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan və Ermənistan dövlət sərhədində növbəti monitorinq keçirilib



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 4-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Oqnyen Yoviç, Mixail Olaru və Martin Şuster aparıblar.

*Tibb xidməti*

# Əsgərlərimizin sağlamlığı əmin əllərdədir

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində olduğumuz zaman müasir standartlara cavab verən avadanlıqlarla təchiz edilən tibb məntəqəsi diqqətimizdən yayınmadı. Bura daxil olduqda həkimlər tərəfindən tibb məntəqəsinə müraciət edən əsgərimizə sarğı qoyulurdu. Onlara müraciət edən xəstəyə yüksək səviyyədə qayğı göstərilirdi. Həkimlərimizin işinə maneçilik törətməmək üçün işlərinin bitməsini gözlədik.

Sarğı qoyulduqdan sonra tibb xidməti leytenantı İlkin Həsənliyə yaxınlaşdım. Zabit qeyd etdi ki, orta və kiçik tibbi heyətin əməyinin təşkil edilməsinə və onların öz vəzifələrini yerinə yetirməsinə nəzarət edir. "Həkimlərin normal işləmələri üçün şöbədə ümumi intizama, müntəzəm olaraq tibbi alətlərə, dərman və materiallarla təchizata, əmlakın və tibbi inventarın qorunmasına və avadanlığın vaxtında təmir olunmasına diqqət yetirilir. Həmçinin xəstələrin qidalanmasına və yeməklərin şöbələrə daşınmasının düzgün təşkilinə, az tapılan dərmanların və materialların düzgün uçotunun aparılmasına, təhlükəsizlik texnikası, aseptika və antiseptika qaydalarına düzgün riayət olunmasına hər zaman nəzarət edilir." Söhbət zamanı həkim bildirdi ki, ən kiçik yara belə insanın həyatı üçün təhlükə mənbəyi ola bilər. "Yaraya toxunan hər şey steril, yeni, mikrobsuz olmalıdır. Çünki cürbəcür mikroblar yara vasitəsilə asanlıqla orqanizmə daxil ola bilər. Ona görə də zədələnmiş yerə sarğı qoymaq lazım gəlir. Sarğı yaranı mikroblardan və kənar təsirlərdən qoruyur, qanaxmanı dayandırır. Bunun üçün tənzifdən və pambıqdan istifadə edilir. Yadda saxlamaq lazımdır ki, pambıq da, tənzif də steril olmalıdır. Yod və spirt kimi vasitələr mikrobları öldürür."

"Sarğı qoyarkən müəyyən qaydalara xüsusən əməl edilməlidir", - deyə leytenant İlkin Həsənli sözünə davam etdi.

- Əvvəlki iki sarğı ikiqat, yəni, üst-üstə qoyulur, sonrakı sarğılar biri digərinin yarısını tutmaqla davam etdirilir. Ələ sarğı qoyarkən barmaqların uclarını sarğıda saxlamaq düzgün deyil. Qanı dayandırmaq üçün sarğını bərk sıxmaq olmaz. Bu, yaralının qan dövranını poza bilər. Ancaq çox boş da sarımaq sarğının boşalıb öz-özünə açılmasına səbəb olar. Bəzən ehtiyatsız hərəkət etdikdə ayaq burxulur, sümükləri birləşdirən bağlar və əzələlər dartılıb gərilir, ayaq şişir və şiddətli ağrılar baş verir. Belə hallarda ilk yardım olaraq dəsmalı soyuq su ilə isladıb zədələnmiş yerə qoymaq və tibb



məntəqəsinə müraciət etmək lazımdır.

Burada müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Kəmalə Əflani ilə də tanış oluruq. O, həkim tərəfindən verilən bütün təyinatların, göstərişlərin düzgün və vaxtında yerinə yetirilməsinə, həmçinin sanitar rejimə, daxili qaydalara xəstələr tərəfindən riayət olunmasına nəzarət edir. Onun xəstələrlə mehriban davranışının şahidi olduq. Kəmalə Əflani bildirdi ki, həkimlik sənəti qəhrəmanlıq, hünər deməkdir. "Həkimin gücü onun ürəyindədir, dərmanın ən böyük hissəsi məhəbbət, inam, sevgi və xəstəyə göstərilən isti münasibətdir."

Həmsöhbətim onu da qeyd etdi ki, tezliklə Ali Baş Komandanımızın rəhbərliyi altında işğal altında olan torpaqlarımızın işğaldan azad olunacağına o da əmindir.

Hərbi hissənin tibb məntəqəsinə müraciət edən əsgər Ceyhun Aşurov həkimlərin, tibb bacılarının onlara olan diqqətindən, qayğısından, tezliklə sağalıb öz xidmətinə qayıtmaq istəyindən söz açdı və Vətəni üçün son damla qanını belə əsirgəməyəcəyini vurğuladı.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

Ordu və cəmiyyət

# "Jurnalist informasiya təhlükəsizliyi siyasətinə əməl etməlidir"

*Rubrikamızın qonağı İctimai Televiziyanın İnformasiya Departamentinin böyük redaktoru, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosial Elmlər İnstitutunun dissertantı, Qarabağ müharibəsi veteranı, ehtiyatda olan kapitan Şöhrət Eyvazovdur. 2002-ci ildən jurnalist fəaliyyəti ilə məşğul olan həmsöhbətim "Qərbi Azərbaycan salnamələri", "Bizim general", "Ermənistanda Azərbaycan mənşəli toponimlərin dəyişdirilməsi tarixi faktlarla" kitablarının müəllifi, "Ordudan tərxis olunmuş gənclərə iş tapmaqda məsləhətlər" və Heydər Əliyev Fondunun dəstəyi ilə nəşr olunan "Hərbçinin qeyd və yaddaş kitabçası"nın tərtibçisidir. 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamıyla "Tərəqqi" medalına layiq görülüb.*



**- Jurnalistikaya gəlişiniz, eyni zamanda, İctimai Televiziyanın Qarabağ bölgə müxbiri kimi fəaliyyət göstərməyiniz təsadüfdü, seçimdi, yoxsa zərurət?**

- Jurnalistikaya gəlişimi hardasa seçim adlandırmaq olar. Ancaq İctimai Televiziyanın Qarabağ bölgə müxbiri kimi fəaliyyətə başlamağım zərurətdir. Hesab edirəm ki, vətənpərvər olan hər bir azərbaycanlının atmalı olduğu ilk addım Qarabağa bağlı olmalıdır. Vətəni sevmək və onun yolunda hər kəsin bacardığı nəsə etməyə çalışması daxildən gələn səsin, sevginin nəticəsidir. Ölkəmizin ərazi bütövlüyünün bərpası yolunda nəsə etməyi bacara bilirəmsə, bundan qürur duyur, təskinlik tapıram. Həyat elə gətirib ki, istər zabit, istərsə də jurnalist kimi fəaliyyətimin böyük bir hissəsi Qarabağla bağlı olub. 1993-2001-ci illərdə Azərbaycan Ordusunun ön xətdə yerləşən hərbi hissələrində xidmətimi Vətənə bağlılığın tərkib hissəsi adlandırmaq olar. Jurnalistikaya marağım könüllü olaraq bir zabit kimi Qarabağ uğrunda gedən döyüşlərə qatıldığım ilk günlərdən başlayıb. İmkan düşdükcə döyüş yoldaşlarımdan müsahibələr alır, hərbi əməliyyatlar haqqında gündəlik yazır, döyüş yoldaşlarımızla qeyd etdiyimiz bayramları lentə alırdım. Bütün bunlar jurnalistikaya olan həvəsimdən irəli gəlirdi. Jurnalist kimi ilk fəaliyyətim isə "Hərbi And" qəzetindən başlayır. "Hərbi And" qəzetinin jurnalist kimi formalaşmağımda rolunu xüsusi qeyd etməliyəm. Bu gün də həmin qəzetlə əməkdaşlığımı davam etdirir, müxtəlif səpkili yazılar göndərirəm.

**- Ancaq jurnalist kimi fəaliyyətinizin böyük hissəsi İctimai Televiziya ilə bağlıdır…**

- Bəli. Jurnalistlik fəaliyyətimin son 14 ili İctimai Televiziya ilə bağlıdır. 2005-ci ildə İctimai Televiziyada fəaliyyətə başlayanda hərbiyönümlü qəzetdəki təcrübəmi, eyni zamanda, ehtiyatda olan kapitan olduğumu nəzərə alaraq hərbi vətənpərvərlik proqramı olan "Salam Əsgər" verilişində işləməyi məsləhət bildilər. Yadımdadır, ilk süjetlərimizdən biri Ramil Səfərovun valideynləriylə müsahibə idi. Bir müddət sonra rəhbərlik cəbhə bölgəsində xidmətimi nəzərə alaraq, mənə Qarabağ bölgə müxbiri vəzifəsini təklif etdi. Çox həvəslə gəldim və yenidən Qarabağ amili həyatımın tərkib hissəsinə çevrildi.

**- Hazırladığınız hansı xəbər daha çox yadınızda qalıb?**

- "Hərbi And" qəzetində "Mən əsgər olanda" rubrikasında hazırladığımız xəbərlər, Qarabağ həqiqətlərinin təbliğiylə, cəbhə bölgəsində yaşayışla, düşmənin mülki əhaliyə qarşı təxribatlarıyla, atəşkəs pozulmalarıyla, ərazi bütövlüyümüz uğrunda canından keçən oğullarımızla bağlı informasiyalar, Milli Qəhrəmanların anım tədbirləri, şəhid anaları və həyat yoldaşlarıyla bağlı süjetlər heç zaman xatirimdən çıxmaz.

**- İnformasiya müharibəsinin geniş vüsət aldığı indiki dönəmdə cəbhə bölgəsindən hazırlanan xəbərlərin, xüsusilə hərbi məlumatların çatdırılması barədə fikirlərinizi bilmək maraqlı olardı.**

- Cəbhə bölgəsində çalışmaq istəyən jurnalistin müəyyən səviyyədə hərbi bilikləri və təcrübəsi olmalıdır. Jurnalist hər şeydən əvvəl, dövlətimizin informasiya təhlükəsizliyi siyasətindən irəli gələn prinsiplərə əməl etməlidir. Dövlət və dövlətçilik maraqlarını daim üstün tutmalıdır. Jurnalist verilən informasiyada hərbi sirri qorumağı bacarmalı, məxfilik rejimini pozmamalıdır. Unutmaq olmaz ki, hazırlanan informasiya və süjetləri düşmən tərəf diqqətlə izləyir, onun əsasında təhlillər aparır. Verilən informasiya və dezinformasiyaların televiziya müxbiri kimi acı nəticələrinin şahidi olmuşuq. Ona görə də düşünürəm ki, ölkəmizə qarşı aparılan informasiya müharibəsində, o cümlədən döyüş əməliyyatları şəraitində və digər hallarda "media gücü" "hərbi gücü" daim dəstəkləməlidir. Bu gün medianın, xüsusi ilə də sosial medianın təsir dairəsi genişdir və bu faktor danılmazdır. Hər zaman insan özünə xoş olan informasiyanı eşitmək istəyir. Məsələn, hər hansı bir rayonun azad olunması informasiyası yayılırsa, xəbərin yalan olduğunun ən yaxşı sübutu onu inkar etmək deyil, əks variantını göstərməkdir. Tutaq ki, düşmən tərəf guya hər hansı cəbhəyanı kəndin boşalması xəbərini yayır. Bu xəbərin yalan olduğu barədə xəbər yaymaqdansa, sadəcə həmin kənddə hər şeyin qaydada olduğunu və əhalinin normal yaşayışını göstərmək bunun şayiə olduğunun ən yaxşı sübutudur.

Şayiələr insan tələbatlarından biridir və nəzarət mexanizmindən kənardadır. Bəzən reallıq haqqında təqdimat reallığın özündən vacib olur. Yəni, insanlar reallığı yaxşı tərəfə dəyişmək əvəzinə, reallıq haqqında təsəvvürləri dəyişməyə meyillidirlər. Buna görə də fikrə və ya emosiyaya təsir etməsindən asılı olmayaraq yalan və şayiə dolu "media seli" daha çox adamı ağuşuna alır.

**- Televiziya müxbirləri Aprel döyüşləri ərəfəsində informasiya təhlükəsizliyinə əməl edə bildilərmi?**

- Deyərdim ki, Aprel döyüşləri zamanı informasiya müharibəsinin reallıqları daha çox nəzərə alındı və cəbhə bölgəsindən xəbər hazırlayan müxbirlərimiz məsuliyyət yükünü hiss etdilər. Ümumilikdə 2016-cı ilin Aprel döyüşlərində bölgə jurnalistikası bu "imtahandan" pis çıxmadı.

**- Nələri döyüş bölgəsindən hazırlanan xəbərin əsas xüsusiyyətləri hesab edirsiniz? Bu sahədə çətinliklər nədən ibarətdir?**

- Televiziya reportyorluğu, bölgə müxbirliyi işinin öz mürəkkəbliyi və spesifik çətinliyi var. Lazımi yerə vaxtında çatmaq, operativ və keyfiyyətli çəkilişi təmin etmək, xəbəri dəqiq və lakonik formada təqdim etmək əsas çətinliklərdəndir. Ön xətdə yaşayan mülki əhali, eyni zamanda, xidmət edən hərbçilər "yumşaq" desək, informasiya verməyə çox da meyilli deyillər. Buna görə də alınmış informasiyanı dəqiqləşdirmək xeyli vaxt aparır. Digər tərəfdən, bölgədən xəbər vermək təkcə onu "tapmaq" deyil, həm də informasiyanı tez hazırlayıb mərkəzə göndərməkdir. İnformasiyanı göndərərkən əvvəllər fərdi üsullardan istifadə edilirdisə, indi internet resurslarına daha çox üstünlük verilir. Bölgədə internetin nisbətən zəif olduğunu nəzərə alsaq, problemin tam həll olmadığını deyə bilərik. Kütləvi İnformasiya Vasitələrinin əksəriyyətinin mediadan, xəbər mənbəyindən daha çox "qeydiyyatçı"ya çevrilməsi qlobal xarakter daşıyır. Belə görünür ki, onlayn media siyasi, iqtisadi, hərbi motivlərdə media funksiyalarını daha parlaq və geniş miqyasda həyata keçirir.

**- Ümumiyyətlə, cəbhə bölgəsindən göndərilən xəbərlər hansı metodologiyaya əsaslanmalıdır?**

- Sualınıza cavab verərkən qeyd etmək istəyirəm ki, "Qaynar xəbər" üzrə materialları 4 bloka aid etmək olar: Ekstern informasiyalar (hadisə baş verən ilk saatlarda yayılanlar); ekspert və şahidlərin rəyləri ilə verilən informasiyalar; görülən tədbirlər, psixoloji yardım və s. haqqında informasiyalar; nəticə və gələcək fəaliyyət haqqında olan informasiyalar. Qarabağ bölgəsindən verilən xəbərlər ən çox ilk qrupa aid olanlardır. Mümkün olarsa, bunların bir yerdə olması xəbəri daha canlı edir. Məsələn, hər hansı kənd qəbiristanlığını Ermənistan ordusunun atəşə tutması nəticəsində ziyarətə gələn dinc sakinin yaralanması xəbərini ilk variantda yaralıdan müsahibə ilə çatdırmaq lazımdır. Sonrakı buraxılışda isə yerli icra nümayəndəsi və kənd sakinlərindən müsahibə alıb göndərmək daha doğru olar. İstənilən halda, təqdimatlar "çevrilmiş piramida" şəklindədir, yəni, hadisənin necə başlanmasından yox, hadisənin əsas elementindən, mahiyyətindən başlanılmalıdır. Müxtəlif vasitələrə, faktoloji informasiyaya baxmayaraq çoxlu terminlərdən, neytral leksikadan, şahidlər və mütəxəssislərdən, sitatlardan da istifadə olunur. Xəbərin əhəmiyyətinin artırılması metodlarından biri statistik informasiyalardan istifadədir. Xəbərin strukturu jurnalistin qarşısına qoyduğu funksiyalardan - əsasən kommunikativ və ideoloji funksiyalardan birbaşa asılıdır. İdeoloji funksiya jurnalistin ictimai fikrə, insan özünüdərkinə, ideallara, mənəvi və maddi dəyərlərə təsirində bəlli olur. Xəbər "burada və indi" olaraq maraqlıdır. Hadisədən nə qədər çox keçsə, onun haqqında xəbər o qədər maraqsız olur. Xəbərin "qiyməti" auditoriyanın sayına proporsionaldır. Eyni zamanda, xəbərin strukturu və verilməsi redaksiyanın informasiya siyasətindən asılıdır.

**- Cəbhə bölgəsindən verilən xəbərlərə senzura olmalıdır fikrinə münasibətiniz…**

- MDB məkanında senzura ilk olaraq Azərbaycanda ləğv olunub. Fikrimcə, hərbi xəbərlərdə ən azından daxili bir senzura olmalıdır. Uzun müddət cəbhə bölgəsində çalışan bir jurnalist kimi mən həmişə özümdə bu senzuranı hiss etmişəm. İstənilən Kütləvi İnformasiya Vasitələri ön xətdən verilən informasiyanı cəmiyyətə ötürərkən daha həssas olmalı, senzuranın tələblərinə əməl etməlidir. Yaxşı olar ki, onlar informasiyanı bir mənbədən, əsasən Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən əldə edərək cəmiyyətə ötürsünlər. Bir sözlə, xəbəri emal edəndə sensasiyadan çox, vətəndaşlıq mövqeyi öndə olmalıdır.

**- Bu gün dövlət rəhbərliyi ekstremal şəraitdə xidmət edən müxtəlif peşə sahiblərinə yüksək səviyyədə diqqət və qayğı göstərir. Ön xətdə fəaliyyət göstərən jurnalistlər də bu diqqət və qayğıdan kənarda qalmayıb.**

- Cəbhə bölgəsində xidmət edən jurnalistin konkret iş saatı yoxdur və onlar hərdən həyatı üçün təhlükəli olan risklərlə üzüzə qalmalı olurlar. Son 10 ili xatırlasaq, 2 yaşı tamam olmamış Zəhra Quliyevanı, 3-cü sinif şagirdi Fariz Bədəlovu qətlə yetirməkdən çəkinməyən Ermənistan hərbçilərinin ön xətdə çəkiliş aparan media əməkdaşlarına atəş açmayacaqlarına zəmanət yoxdur. Bir neçə dəfə elə olub ki, çəkiliş zamanı düşmən tərəfindən müxtəlif çaplı silahlardan atəşə məruz qalmışıq. Bundan başqa, ekstremal şəraitdə işləyənlər öz həyatlarına risk etməklə yanaşı, başqalarının da psixoloji gərginlikləriylə üz-üzə qalmalı olurlar. Psixoloqlar bildirir ki, hər bir ekstremal situasiya insan orqanizmində müəyyən fiziki-psixi proseslərə təsir edir. Son bir neçə ildə bəzi televiziyaların bölgə müxbirlərinin müxtəlif vaxtlarda keçirdikləri ürək əməliyyatları dediklərimə sübutdur. Bu mənada, ölkə rəhbərliyi ekstremal şəraitdə fəaliyyət göstərən müxtəlif peşə sahiblərini daha çox diqqətdə saxlayır. Belə ki, 2008-ci ildə Prezident İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" qəbul olunub. Bu gün daha çox ictimailəşmiş problemlər araşdırılır və onların həllinə dövlət tərəfindən dəstək verilir, bu məsələlərlə bağlı müəyyən işlər görülür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə jurnalistlərə evlərin verilməsi göstərilən diqqət və qayğının təzahür formasıdır. "Tərəqqi" medalı ilə təltif olunmağım da onu göstərir ki, hər bir peşə sahibi, hər bir vətəndaş, hər bir jurnalist bu diqqət və qayğını öz həyatında hiss edir.

**- Döyüş əməliyyatları başlasa, müharibədə hərbçi, yoxsa jurnalist kimi iştirak etmək istərdiniz?**

- Bu gün Azərbaycan Ordusu, Ali Baş Komandanın da qeyd etdiyi kimi, dünyanın ən güclü 50 ordusu sırasındadır. Cəbhə xəttindən materiallar hazırlayarkən şahidi olduqlarım, əminliklə deməyə imkan verir ki, Azərbaycan Ordusu çox güclüdür. Aprel döyüşləri və Günnüt zəfəri də sübut etdi ki, Azərbaycan Ordusu işğal altında olan tarixi torpaqlarımızı azad etmək iqtidarındadır. Hesab edirəm ki, mən bu gün hərbidən yazan jurnalist kimi dövlətə, dövlətçiliyimizə daha çox fayda verə bilərəm, ancaq ehtiyac duyularsa, 18 il əvvəlki kimi yenidən xidmət etməyə və torpaqlarımızın azadlığı uğrunda mübarizəyə qoşulmağa hazıram.

**- Cəbhə bölgəsində olan jurnalistlərin ən böyük arzusu qələbə xəbərini çatdırmaqdır, deyirlər…**

- Qarabağ müharibəsi veteranı və zabit kimi mənim səbirsizliklə gözlədiyim bu qələbənin baş verməsidir. Yəqin qismət olar, xalqımıza Qələbə soraqlı xəbərlər çatdırarıq. Azad olunmasını gözləyən o qədər kəndlərimiz, şəhərlərimiz var ki… İnşallah, bu xəbərləri verməyə növbə hamımıza çatar. Əsas qalib gəlməkdir. Hamıya tezliklə qələbə xəbərlərini eşitməyi arzulayıram.

**Müsahibəni apardı:**
**İsa ELDAROĞLU**

*Fiziki hazırlıq*

# “Xidmətimiz günün tələbləri səviyyəsində qurulub”

*Cəbhə xəttində yerləşən "N" hərbi hissəsində bölmə komandirləri və onların müavinləri ilə keçirilən komandir toplanışlarının yekun mərhələsi keçirildi.*




Hərbi hissənin zabiti Rəhim Rzayev bildirdi ki, bir neçə gündür davam edən toplanışda praktiki vərdişlər nəzərdən keçirildi. “Şəxsi heyətin fiziki, taktiki hazırlığı yoxlanıldı, həmçinin rəhbəredici sənədlərdən test üsulu ilə imtahan qəbul edildi.”

Zabit onu da qeyd etdi ki, bu gün Azərbaycan Ordusu dünya orduları sırasında öncül yer alaraq, Cənubi Qafqazın ən qüdrətli ordusuna çevrilib: "Bilirsiniz, güclü ordu və güclü dövlət vəhdət təşkil edir. Müstəqil dövlətin nüfuzu dünyada onun ordusunun qüdrətilə ölçülür. Fəxrlə deyə bilərik ki, bu gün ordumuzun gücü dünyanın aparıcı orduları ilə müqayisə ediləcək səviyyədədir. Bunun nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordumuza göstərdiyi yüksək diqqət və qayğı gündən-günə artmaqdadır. Əlində silah gecə-gündüz Vətənə keşik çəkən yüksək döyüş hazırlığına malik, peşəkar əsgər və zabitlərimiz torpaqlarımızın azadlığı uğrunda Ali Baş Komandanın döyüş əmrini gözləyirlər. Bu gün izlədiyiniz toplanışın mütəmadi olaraq və plana əsasən keçirilməsi də şəxsi heyətin döyüş hazırlığının və peşəkarlığının artırılmasına yönəlib. Toplanış bölmə komandirlərinin bilik və bacarıq səviyyəsinin daha da yüksəldilməsi, şəxsi heyətin mənəvi-psixoloji ruhunun artırılması, onların fiziki hazırlıqlarının yoxlanılması, rəhbəredici sənədlərin öyrənilməsi məqsədi daşıyır. Ayrı-ayrı bölmələr üzrə keçirilən təlim məşğələlərin nəticəsi onu deməyə əsas verir ki, bölmələrimizin döyüş hazırlığı yüksək səviyyədədir."

Qərargahda olduğumuz müddətdə bölmə komandirlərinin və onların müavinlərinin qarşıdakı imtahana ciddi hazırlaşdıqlarının şahidi oluruq. Onlar fiziki hazırlıqlarını artırmaq məqsədilə idmanın müxtəlif növlərində məşq edir, qarşılarına qoyduqları hədəfə çatmağa çalışırdılar.

- Bir neçə gündür ki, toplanış davam edir. Hər birimiz toplanışın planına uyğun olaraq hazırlıq səviyyəsinin artırılmasına nail olmağa çalışırıq, - baş leytenant Bayram Əliyev bildirdi. - Sonda xidmətdə qazandığımız bilik və bacarığımızın hansı səviyyədə olması qiymətləndiriləcək. Nəticədə hər kəsin nəyə qadir olduğu bilinəcək. Əminik ki, nəzərdə tutulan bütün tapşırıqların öhdəsindən bacarıqla gələcəyik. Çünki buna ciddi və yüksək hazırlığımız imkan verir.

Sonda bölmə komandirlərinin və onların müavinlərindən götürülən imtahanın nəticələri elan edildi. Nəticələr qənaətbəxş hesab olunur. Toplanışın yekunu onu deməyə əsas verir ki, Azərbaycan Ordusu günün tələbləri səviyyəsində qurulub və onun şəxsi heyəti istənilən döyüş tapşırığının öhdəsindən gəlməyə qadirdir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Hərbi texnikalar, silahlar*

# Tank əleyhinə idarəolunan “Kornet” raket kompleksi



Rusiya istehsalı olan tank əleyhinə idarəolunan (TƏİR) "Kornet" raket kompleksi tankların və digər zirehli hədəflərin məhv edilməsi üçün nəzərdə tutulub. Digər komplekslərdən fərqli olaraq lazer şüası ilə idarə olunan raket, həmçinin helikopterlərə, termobarik döyüş başlığı sayəsində yüngül zirehli maşınlara, piyadalara və möhkəmləndirilmiş mühəndis-istehkam qurğularına qarşı da istifadə olunur. “Kornet” tank əleyhinə idarəolunan raket kompleksi müasir aktiv mühafizə vasitələrini iki idarəolunan raket hesabına məhv edə bilər. Kompleks aerodinamik "ördək" sxemi üzrə hazırlanıb və müxtəlif idarəolunan 99M133, 9P163M-1 raketləri ilə də təchiz edilib. Raketlər buraxıcı-nəqliyyat konteynerində yerləşdirilir. Raketin korpusu və yığılan sükanı metaldan, konteynerі isə plastikdən hazırlanıb. Raketlər konteynerdə on il müddətinə saxlanıla bilər.

Kompleks hərəkət edən və hərəkət etməyən yerüstü, suüstü dəniz və hava hədəflərinə qarşı atəş aça bilər. Piyada qurğularından başqa "Kornet" BMP-2M silahlanma kompleksinin tərkibinə də daxil edilib.

Bundan başqa "Kornet" kompleksi BMP-3-ün şassisində və “Tiqr” avtomobilində yerləşdirilə bilər. Onun uçuş trayektoriyası spiralvaridir.

Texniki xüsusiyyətlərinə gəldikdə isə gündüz vaxtlarında maksimal atəş uzaqlığı 5500 metr, gecə vaxtlarında isə 3500 metr təşkil edir. Minimal atəş uzaqlığı isə 100 metrə qədərdir. Hədəfə olan maksimal sürəti saatda 70 kilometrdir. Raketin kalibri 152 mm, uzunluğu 1200 mm, qanadlarının maksimal açılması 460 mm-dir.

Raketlə birlikdə buraxıcı-nəqliyyat qurğusunun çəkisi 29 kiloqram, raketin çəkisi 26 kiloqram, döyüş hissəsinin çəkisi 7 kiloqramdır. Qurğunun mühərrikinin növü RDTT, nişangahı 1PN-79 "Metis-2", çəkisi 11 kiloqramdır. Onun gecə vaxtlarında aşkar edərək atəş açma uzaqlığı 4500 metrə qədər, tanıma uzaqlığı isə 2500 metrdir. Ştat üzrə döyüş heyəti iki nəfərdir. Kompleks bir dəqiqə ərzində döyüş vəziyyətinə gətirilir. Atəş tezliyi dəqiqədə 2-3 atışdır. Döyüş hissəsi kummulyativdir.



"Kornet" raket kompleksi müxtəlif tank əleyhinə idarə olunan raketlərlə də təchiz edilib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə “SOM-B2” raketini uğurla sınaqdan çıxarıb



Türkiyənin Müdafiə Sənayesinin sifarişi ilə TÜBİTAK SAGE tərəfindən istehsal olunan "SOM-B2" raketi uğurla sınaqdan çıxarılıb.

Sınağın videogörüntüsü Sənaye və Texnologiyalar naziri Mustafa Varankın Tvitter səhifəsində yer alıb. Görüntüdə əks olunur ki, beton sığınacaqlara qarşı düzəldilmiş "SOM-B2" raketi hədəfi dəqiqliklə məhv edir.

## Cozef Danford: Kosmosda rəqabət ABŞ-ın ticari və hərbi maraqları üçün real təhlükədir



Rusiya, Çin, Şimali Koreya və İran kosmosda ABŞ-ın rəqibləridir və bu da rəsmi Vaşinqtonun ticari və hərbi maraqları üçün real təhlükədir.

Bu barədə ABŞ Silahlı Qüvvələrinin Qərargah Rəislərinin Birləşmiş Komitəsinin sədri Cozef Danford bildirib.

O deyib ki, 1990-cı illərdə kosmosda iş görməyə başlayanda rəqiblərimiz haqqında düşünməmişdik. Hazırda kosmos rəqabət zonasıdır. Rəqiblərimiz arasında Şimali Koreya, Rusiya, Çin və İran var. Bu ölkələrin hamısı kosmosda bizim üçün real təhlükə yaradır və eyni zamanda, hərbi və kommersiya maraqlarımıza ciddi ziyan vurur.

## Rusiyada iki “SU-34” bombardmançı təyyarəsi toqquşub



Rusiyanın Lipetsk şəhərində iki "SU-34" bombardmançı təyyarəsi toqquşub.

Hadisə təlim uçuşu vaxtı baş verib. Toqquşma zamanı təyyarələrə ciddi zərər dəysə də, pilotlar hava limanına enə biliblər. Hadisə nəticəsində xəsarət alan olmayıb. Hələlik hadisə ilə bağlı rəsmi məlumat verilməyib.

## Ukrayna və Rumıniyanın iştirakı ilə hərbi təlimlər başlayıb



Dunay çayının deltasında İzmayıl və Tulçea rayonlarında "Riverin-2019" adlı rumın-ukrayn birgə hərbi təlimləri başlayıb. Bu barədə Rumıniyanın hərbi-dəniz qüvvələri məlumat yayıb.

Sentyabrın 7-də başa çatacaq təlimlərdə hər iki ölkədən 300 hərbçi və beş hərbi gəmi iştirak edir.

## Türkiyəli hərbçilər S-400-ün idarə olunmasını öyrənməyə başlayıblar



Türkiyəli hərbçilər Rusiyanın Qatçina şəhərində S-400 zenit-raket komplekslərinin idarə edilməsini öyrənməyə başlayıblar. Bu barədə Türkiyə Müdafiə Nazirliyi məlumat yayıb.

Bir qədər əvvəl "Almaz-Antey" konserninin baş direktoru Yan Novikov Türkiyə Silahlı Qüvvələrinin hərbçilərinin S-400 komplekslərinin idarə edilməsi üzrə hazırlığının yanvarın 2-də başa çatacağını bildirmişdi. İyul ayında S-400 zenit-raket komplekslərin birinci batareyası Türkiyəyə gətirilib. Avqustun axırlarında isə ikinci batareyanın elementlərinin çatdırılmasına başlanılıb.

Xatırladaq ki, 2017-ci ilin dekabrında Türkiyə və Rusiya S-400 "Triumf" zenit-raket komplekslərinin alınmasına dair 2,5 milyard dollar həcmində kredit sazişi imzalayıb. Bu saziş Türkiyə ilə ABŞ-ın münasibətlərində çatlar yaradıb. Birləşmiş Ştatlar Ankaradan bu sövdələşməni dayandırmağı tələb edib. Əks-təqdirdə F-35 qırıcı təyyarələrinin Türkiyəyə satışının ləngidiləcəyini və ya tamamilə dayandırılacağını istisna etməyib. Ankara geri çəkilməyib və nəticədə Türkiyə F-35 proqramında iştirakdan kənarlaşdırılıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Könlüm şeir istəyir*

# Poetik vüsət

*Xalq şairi Nəriman Həsənzadə ruh şairidi. Yazdıqları səmimiliklə oxunur, oxucunu həm düşündürür, həm də duyğularını ehtizaza gətirir.*

*Nəriman Həsənzadənin yaradıcılığı çoxşaxəlidir. Şairin Vətənin gözəlliklərini tərənnüm edən şeirləri də bu qəbildəndir, sevgi şeirləri də, lirik əsərləri də belə oxunur, epik əsərləri də.*

*Xalq şairi Nəriman Həsənzadənin Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimova həsr etdiyi poema şairin həm qəhrəmana, qəhrəmanlığa ehtiramın, həm də müharibəyə münasibətin poetik ifadəsidir...*

*Nəriman Həsənzadənin yaradıcılığında poetik vüsət hiss edilməndir, könülə yatımlıdır...*

**"Azərbaycan Ordusu"**

### Bir yol ayrıcına bənzəyir həyat

Bir yol ayrıcına bənzəyir həyat,
Yaramaz həyatın üstündə əsmək.
Cəsarət istəyir, bir də ehtiyat,
Nə ləngimək olar, nə də tələsmək.

Ehtiyat elədim orda ki, bir vaxt,
Cəsarət hər şeyə, məncə, dəyərdi.
Cəsarət göstərdim orda ki, ancaq,
Adi bir ehtiyat bəs eləyərdi.

Bu dünya qəribə bir əyləncədir,
Dünya sərt, mən bəzən uşaqxasiyyət.
Yaşadım, bilmədim bu dünya nədir,
Bilmədim, dünyada nədir səadət.

Kədərim dünyanın vecinə deyil,
Sevincim necə bəs, düşürmü yada?
Bəlkə dünya üçün, bu - heç nə deyil,
Nə qədər sevinc var, qəm var dünyada.

Dünya sərgisində göründüm, yetər,
Həqiqət dedim mən "yalan dünya"ya,
Dünyanı əyləncə hesab edənlər,
Əylənib baxsınlar bir an dünyaya.

### Qızlardan oğlanlara

Oğlanlar, qızlara hörmət eləyin,
Ya sevin qızları, ya rədd eləyin.
Aldadıb atmayın, günahdı qızlar
Sabahkı ən əziz anadı qızlar.

Səsində həya var, gözündə ovsun,
Evdə dilavərdi, çöldə lal olur.
Gözünüz qızların gözündə olsun, -
O gözdə daimi bir sual olur.

Qızlar anadılar, oğlanlar ata,
Kim deyir, bu işi bir əyən olmur?!
Qızların qız vaxtı gözəl olsa da
Gəlinlik vaxtları müəyyən olmur.

Fikirə öyrəşir, qəmə qatlaşır,
Qəlbində yaşadır, sirrini təkcə.
Öz ata evində qızlar yadlaşır
Yad oğlan evinə meyl eylədikcə.

Qəlbini sevdiyi oğlana deyir,
Ancaq rəfiqəsi soruşsa, danar.
Özgə anasına qız ana deyir,
Özgə atasına qız olan qızlar.

Qızlar aldanandı, siz aldatmayın,
Aldanıb yananın qanı buz qalar.
Qolları üstündə gedib yatmayın,
Yazıqdı, əbədi yuxusuz qalar.

Görüşə getməyin ürək sevməsə
Sözümü, a qızlar, ucuz tutmayın.
Ürəkdən çəkirik nə çəkiriksə,
Bunu da həyatda siz unutmayın.

### Mən də yağmalıyam

Çətindir mənimlə birgə yaşamaq,
Bəzən gözlərimdə dəyişir aləm.
Mənimlə ömür-gün yoldaşı olmaq
Bir az da çətindir,
Başa düşürəm.

Nə duman çəkilir, başımdan nə çən,
Tufanlı-boranlı dağam mən, nəyəm?!
Nə bilim,
Dünyada mən öz əlimdən
Bəlkə də birinci şikayətçiyəm.

Məndə bir "mən" də var...
Məndən bixəbər,
Nə eşidər məni, nə sayar məni.
Yer var ki, o məni hörmətsiz eylər,
Yer də var şöhrətə çatdırar məni.

Bir qəmi bir ürək gəzdirə bilər,
Yüz ürək qəmi var bu bir sinəmdə.
Mən yerdən göylərə baxsam da əgər,
Göy ürəyimdədir...
Yer ürəyimdə.

Bir insan olsaydım nə idi dərdim,
Yaşardım hər fəsil bir paltar geyib,
Evimdə çay içib, çörək də yeyib
Bir insan qəmini çəkə bilərdim.

Sinəmdə xalqların bədbəxt taleyi,
Bəzən bir aldanmış qadın gileyi,
Bəzən bir torpağın batan çeşməsi,
Bəzən bir üzsüzün üzə düşməsi,
Könlümün yayını çəkib qırırlar,
Səndən diqqətimi yayındırırlar.

Elə ki, tutuldum, gözlə bir qədər,
Bir az qayğıkeş ol sən ana kimi.
Yağış yağan kimi açılır göylər,
Mən də yağmalıyam...
Yağana kimi.

### Mən səni sevəndə yaz havasıydı

Neyləyim, taleyin gözü tökülsün
Həyatım əlində quş yuvasıydı
Quran özün oldun, uçuran özün
Mən səni sevdim ki, yoldaş olasan
Həyatın ən ağır, dar yollarında
Demədim axırda bir daş olasan
qədim qəbristanda, yol kənarında.

Mən səni sevdim ki, yüyür, qaç, oyna
Yenə seçilməsin ətrin bahardan
Demədim təzədən gizlənpaç oyna
Axşam yuxuma gir, səhər qaç ordan
Yadıma nə düşür! - sənin ad günün
Biz qoca deyirdik, dünya təzəymiş
İli yox həyatda insan ömrünün
Anı da, tarixi də bir hadisəymiş.

### Ürəyim ananı istəyir qızım

Sən yaşa, dünyada qəmsiz kədərsiz,
Bir səs qulağıma döz deyir, qızım,
Mən dözdüm,
Yaş ötdü məndən xəbərsiz.
Qaşlarım qaradı, saçlarım ağdı,
Təbiət şəkilimi çəkir yenidən.
Hamı bu dünyada qocalacaqdı,

Amma tək qocalmaq dərd verir hərdən.
"Dağlar" deyə-deyə mən dağ aşmışam,
Hanı tale dostum,
Ürəkdən gülən?!
Dünyada yaşayıb dünyalaşmışam,
Dünyayla düz gəlmir daha mən deyən.
Daddım acısını şirin həyatın,
Hələ bu acıdan doyan olmayıb.
Qızım qardaşınla sən olmasaydın,
Deyərdim dünyada anan olmayıb.
Daha yaş artdıqca, səbrim azalır.
Yaş aşdı...
Neyləsin yaş əyir, qızım,
Qadınsız ata da anasız, qalır
Ürəyim ananı istəyir qızım...

### Girov

Bilmirəm, bir ömrü yaşamışammı,
Ya heç yaşamağa başlamışammı?
Bəlkə bircə həftəm qalıb o vaxta?
Deyirlər, söz qalır dünyada yalnız,
Gəldi-gedəriyik qalan hamımız,
Deyə bilmişəmmi qalan söz olsun,
Adımla çəkilən filan söz olsun.

Adım Nərimanın adıdır, nə qəm,
O şöhrət qazanıb getdi bu ada.
Şöhrətli bir adı yaşadan mənəm,
Şöhrətsiz olan da mənəm dünyada.

Adlar yolumuza çıraq olurlar,
Yolların mənzili kəsə olmayır.
Bir söz qəzasında həlak olurlar,
Bu ömür - hər ömrə nəsib olmayır.

Ürəkdi bu eşqlə qaynayıb-daşan,
Sinəmdə çırpınır alışmaq üçün.
Bir insan ömrünü girov qoymuşam,
Bir şair ömrünü yaşatmaq üçün.

### Mən

Kimsə salam verdi mənə rəhm ilə,
Allahın nə yazıq bəndəsiyəm mən.
Tüstüsüz yandım mən odlar içində,
Təndirin küt gedən kündəsiyəm mən.

Məndən inciməsin, dostlar, tanışlar,
Daha yaddaşıbdı doğma baxışlar.
Ey əsən küləklər, yağan yağışlar,
Tökülün üstümə, dözəsiyəm mən.

Yatır süfrəmizə çörək gətirən,
Ailə yükünü təkcə götürən.
Mən boynubüküyəm, o köksötürən,
Yeganə arxası, kimsəsiyəm mən.

Qadındır hər evin isti nəfəsi,
Qadın anadırsa - yoxdu əvəzi,
Ağırdı ananın ağır xəstəsi,
Atayam, ananın xəstəsiyəm mən,
Bəlkə bədbəxtlərin təzəsiyəm mən?!

### Daş ana

Mən bu daş saçlara sığal çəkmişəm,
Nə qədər öpmüşəm bu daş üzündən,
Bu daş dodağından, bu daş gözündən,
Arı pətəyindən mən bal çəkmişəm.

Yer üzü Vətəndi, qəbir də Vətən
Bu gözün ağıdı, o qarasıdı.
Lakin bu dünyada olmayıb deyən, -
Bunun Vətən hansı, qürbət hansıdı?!

Qızıydın sevinən, qaçan, gülən,
Mənim ürəyimə od ələyən də.
Səni mən olmuşam gəlin eləyən,
Bu daşlar içində daş ələyən də.

Ayrılıq əbədi bir qəmdi, nə qəm,
Nə arzuya qıyır, nə yaşa baxır,
Mən başa baxmaqdan daşa dönmüşəm,
Üz-üzə durmuşuq; daş-daşa baxır.

Yetim bir uşaqdı kişi qadınsız,
Mən bir uşaq dedim… tək uşaq olmur.
Zaman qorxuludu, ömür vəfasız,
Dünyada tək qalıb yaşamaq olmur.

Qızın-ana, - deyib cavab almayır,
Bilmirəm sən necə mənasan, ay daş!
Daş kimi nə daşsan, o, daş olalı,
Nə də ana kimi anasan, ay daş?!

# İdman

## Azərbaycan boksçusu Rəşid Həsənov Avropa çempionatına qələbə ilə başlayıb




Bolqarıstanın paytaxtı Sofiyada gənc boksçular arasında Avropa çempionatına start verilib. İlk yarış günündə Azərbaycan millisinin 4 üzvü rinqə çıxıb.

Komandamızın heyətində Rəşid Həsənov qitə birinciliyinə qələbə ilə başlayıb. Çempionatda 64 kiloqram çəki dərəcəsində qüvvəsini sınayan boksçumuz Simon Vollmerlə (Almaniya) döyüşdən qalib ayrılıb - 4:1. O, səkkizdəbir finalda ilk mərhələdən azad olan isveçli Hampus Bromanla üz-üzə gələcək. Bu qarşılaşma sentyabrın 8-də baş tutacaq.

R.Həsənovdan fərqli, Maqsud Xasmetov (52 kq) türkiyəli Samet Gümüşə, Eldar Babayev (60 kq) irlandiyalı Killian Kartiyə və Səlim Səlimov (69 kq) isə uelsli Qaran Qrofta məğlub olub.

## "Azəryol" həndbol komandası yoxlama oyununda Ukraynanın "Karpati" klubuna qalib gəlib

Bakının qadın həndbolçularından ibarət "Azəryol" komandası Ukraynada təlim-məşq toplanışını davam etdirir.

Həndbolçularımız hazırlığın ilk günündə Ukraynanın "Karpati" komandası ilə yoxlama matçında qüvvələrini sınayıblar. Ujqorod şəhərində keçirilən görüş "Azəryol"un 38:26 hesablı qələbəsi ilə yekunlaşıb.

## Azərbaycan karateçiləri Tokioda "Karate1 Premyer Liqa" turnirində iştirak edəcəklər




Azərbaycan milli karate komandasının üzvləri sentyabrın 6-8-də keçiriləcək "Karate1 Premyer Liqa" turnirində iştirak etmək üçün Tokioya yola düşüblər.

Federasiyanın prezidenti Yaşar Beşirovun rəhbərlik etdiyi heyətdə 10 idmançı var. Məşqçilərdən kumite üzrə kişilərin baş məşqçisi Bahəddin Kandaz, böyük məşqçi Şahin Xudaverdiyev, qadınların baş məşqçisi Denis Morozov, eləcə də beynəlxalq hakim Cahangir Babayev komanda ilə bir yerdədir.

Məşqçilər heyəti liqanın Yaponiya mərhələsində 9 kişi və 1 qadın idmançının iştirak etməsini məqbul sayıb. Firdovsi Fərzəliyev (60 kq), Rafiz Həsənov və Hümmət Baxşəliyev (67 kq), Rafael Ağayev (75 kq), Ayxan Mamayev, Pənah Abdullayev və Turqut Həsənov (84 kq), Asiman Qurbanlı (84 kq-dan yuxarı), eləcə də İrina Zaretska (68 kq) kumitedə, Roman Heydərov isə kata yarışlarında çıxış edəcək.

## Azərbaycan karateçiləri "Bazel Open"də 6 medal qazanıblar



Karate üzrə milli komandamız İsveçrədə təşkil olunan "Bazel Open" beynəlxalq turnirində uğurla çıxış edib.

Millimizin üzvü Şahin Atamov "Masters" seriyalı ustaların yarışında çempion olub. Novruz Əliyev və İlahə Qasımova isə bürünc medal qazanıblar.

Fərdi yarışlarda İ.Qasımova (55 kq) və Fəridə Əliyeva (68 kq-dan yuxarı) ikinci yeri, N.Əliyev (75 kq) üçüncü pilləni tutublar.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Teyyubov Ruhib Əzizxan oğluna 2011-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 555
Nüsxə 3950